Yeni Azərbaycan.- 2022.- 21 oktyabr.- S.8.

# TÜRKSOY Türkiyədə teatr mütəxəssisləri hazırlayan azərbaycanlı müəllimləri mükafatlandırıb



Türkiyədə Konya Səlcuq Universiteti Dilek Sabancı Dövlət Konservatoriyasının aktyorluq şöbəsinin azərbaycanlı qurucuları, professor Fuad Hacıyev və professor Zəminə Hacıyeva Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən Haldun Taner medalı ilə mükafatlandırılıb.

Fuad Hacıyev və Zəminə Hacıyevanın doğumunun 80 illiyi və konservatoriyadakı fəaliyyətlərinin 30 illiyinə həsr olunan tədbir Konyada keçirilib.

Tədbirə Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-daki təmsilçisi Elçin Qafarlı, Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elxan Zeynalov, Səlcuq Universitetinin Dilek Sabancı Dövlət Konservatoriyasının rəhbəri professor Oğuz Karakaya, universitetin və konservatoriyanın müxtəlif bölmələrinin müəllimləri, Fuad Hacıyev və Zəminə Hacıyanın yetişdirdikləri məzunlar, aspirantlar, tələbələr iştirak ediblər.



Mərasimdə açılış nitqi ilə çıxış edən Oğuz Karakaya Konservatoriyanın Səhnə Sənətləri bölməsinin təməlinin qoyulmasında və 30 il Türkiyədə teatr sənəti üçün önəmli kadrlar yetişdirilməsində xidmətləri olan Fuad və Zəminə Hacıyevlərin fəaliyyətindən danışıb və bildirib ki, Türkiyənin müxtəlif əyalətlərində bir çox dövlət və şəhər teatrlarında çalışan teatr rəhbərləri, rejissorlar və aktyorlar bu iki dəyərli akademikin məzunlarıdır.

Mərasimdə çıxış edən Elçin Qafarlı TÜRKSOY-un Baş katibi Sultan Rayevin salamlarını çatdıraraq Fuad Hacıyev və Zəminə Hacıyevanın Azərbaycanın mədəniyyət ictimaiyyətində kifayət qədər tanındıqlarını və uzun illər Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində çalışdıqlarını vurğulayıb. Elçin Qafarlı bildirib ki, 30 il Türkiyədə türk mədəniyyətinə əhəmiyyətli dəstək verən, teatr sənətçiləri hazırlayan azərbaycanlı ziyalılar Azərbaycanın teatr məktəbini də qardaş ölkədə layiqincə təmsil ediblər. Elçin Qafarlı yubilyarlara TÜRKSOY-un "Haldun Taner" mükafatlarını və xatirə lövhələrini təqdim edib.

Elxan Zeynalov çıxış edərək uzun illər Türkiyədə göstərdikləri xidmətə görə həmyerlilərimizə təşəkkürünü bildirib.

Türkiyənin fərqli bölgələrində fəaliyyətdə olan, Fuad və Zəminə Hacıyevlərin yetişdirdikləri sənətkarlar isə videokonfrans yolu ilə tədbirə qatılaraq müəllimlərinə öz ürək sözlərini söyləyiblər.

Göstərdikləri diqqət və qayğıya görə, Fuad və Zəminə Hacıyevlər dərin təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, 1915-ci il doğumlu yazıçı-dramaturq Haldun Taner Türkiyədə Cümhuriyyət dövrü türk ədəbiyyatında önəmli rol oynayıb, Türkiyədə epik teatr janrının və kabare teatrının qurucularından olub.

***Sevil Hilalqızı Ünal,***
***Ankara***